**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**ÜZEYİR HACIBƏYLİ adına BAKI MUSİQİ AKADEMİYASI**

*Əlyazması hüququnda*

**KADİR MUSTAFA VERİM**

# TÜRKİYƏ – AZƏRBAYCAN KAMANÇA NÖVLƏRİ VƏ ONLARIN İFAÇILIQ XÜSUSİYYƏTLƏRİ

6213.01 – Musiqi sənəti

Sənətşünaslıq üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**Bakı – 2015**

*Dissertasiya işi Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının "Azərbaycan xalq musiqisinin tarixi və nəzəriyyəsi" kafedrasında yerinə yetirilmişdir.*

**Elmi rəhbər:** *sənətşünaslıq doktoru, professor*
**Səadət Abutalıb qızı Abdullayeva**

**Rəsmi opponentlər:** *sənətşünaslıq üzrə elmlər doktoru, dosent*
**Abbasqulu İsmayıl oğlu Nəcəfzadə**

*sənətşünaslıq namizədi, dosent*
**Aslan Məmmədov**

**Aparıcı təşkilat:** Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin "Musiqişünaslıq" kafedrası.

Müdafiə «22 » may 2015-ci ildə saat $14\text{-}^{00}$ Bakı Musiqi Akademiyasının nəzdindəyaradılmış Dissertasiya Şurasının içlasında keçiriləcəkdir.

Ünvan: Az.1014, Bakı şəhəri Ş.Bədəlbəyli, 98

Dissertasiya ilə Bakı Musiqi Akademiyasının kitabxanasında tanış olmaq olar.

Aftoreferat aprel ayının « » 2015-ci ildə göndərilmişdir.

Dissertasiya Şurasının elmi katibi,
sənətşünaslıq üzrə fəlsəfə doktoru:
**Məmmədova Həbibə Vaqif qızı**

## DİSSERTASİYANIN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı**. Dünyanın yarandığı çağlardan bəri saysız-hesabsız çalğı alətləri icad olunmuş və musiqi icrasında istifadə edilmişdir. Bu çalğıalətlərinin əhəmiyyətli bir qismi zaman içərisində istifadədən düşmüşdür. Yalnız günün ehtiyaclarını qarşılayaraq inkişaf edən və istifadəsi asan olan çalğı alətləri yox olma riskindən qurtarmışdır.

Musiqi baxımından inkişaf etmiş olan xalqlar çalğı alətlərini yeniləməklə, inkişaf etdirməklə bu sahədə aktual musiqi zövqlərini ödəyə bilirlər. Musiqi baxımından inkişaf etmiş cəmiyyətlər isə, xalq çalğı alətlərini bacarığı məhdud olduğu hallarda da qorumaqda israrlıdırlar. Bir-birinə çox yaxın çalğı alətləri olan Azərbaycan kamançası ilə Türk kəmanəsinin və onların bənzər növlərinin müqayisəsində bu vəziyyət açıqca görünür.

Struktur, texniki və tədris baxımından kamançanın çatdığı səviyyə yaxın qohumu kəmanə və kəmanəyə bənzər digər Türk yaylı çalğı alətlərindən çox yüksəkdədir. Azərbaycan kamançasının yaxın qohumu olan kəmanə və ona bənzər Türk yaylı çalğı alətlərinin istehsal, çalğı və təhsil istiqamətində araşdırıldığı bu dissertasiya xüsusilə kəmanənin gələcək nəsillərə ötürülməsi baxımından əhəmiyyətlidir. Ayrıca, işlənən mövzu Azərbaycan və Türkiyə arasındakı musiqi təsirinin inkişaf etdirilməsi baxımından da aktual əhəmiyyətə malikdir.

Türk xalq çalğı alətlərimizdən biri olan kabak kəmanənin icrasını çətinləşdirən və çalğı bacarığını məhdudlaşdıran mövcud texniki problemlərin araşdırılması vacibdir. Mövcud vəziyyətdə kəmanə, ənənəvi vəsait olan “kabak” (balqabaq) bitkisindən düzəldildiyi üçün standartdan uzaq sayılır. Çünki standartlaşmanın təmin edilməsi üçün lazım olan meyarlar, keyfiyyətinə görə aşağı bir vəsait olan kabak ilə kafi şəkildə əldə edilə bilmir. Bu səbəbdən çalğı alətinin inkişafının qarşısı bilvasitə kəsilir. Beləcə, bəzi səylər sərf edilmiş olmasına qarşı, kəmanənin gələcəyinin də risk altında olduğunu irəli sürmək real olacaq.

Kəmanənin bir çalğı aləti olaraq inkişaf etdirilə bilməsi üçün çoxcəhətli araşdırmaların aparılması lazımdır. Çünki qarşıya çıxan problemlərin bir çoxu detallı şəkildə araşdırılmasını gözləyir. Çalğı alətlərinin standartlaşdırılmasına maneə törədən quruluş problemlərinin aradan qaldırılması istiqamətində bəzi cəhdlər olmuşdur. Ancaq problemlərin hamısının həllinə imkan verə biləcək genişlikdə akademik iş azdır. Bu səbəbdən, texniki mövzularda və xüsusilə təhsildə qarşıya çıxan problemlər və bunların

quruluş problemlərilə olan əlaqəsi kifayət qədər öyrənilməmiş bir mövzudur. Hətta mövzunun təhsil istiqaməti ilə əlaqədar diqqətəlayiq hər hansı bir akademik iş yoxdur. Təhsili çətinləşdirən və məhdudlaşdıran faktorlar qısaca belə yekunlaşdırıla bilər: üstündə bağlanmış standart bir kəmanənin olmaması, köklənmə problemi, təhsildə istifadə edilən kafi bir metodun olmaması və kafi sayda təchizatlı müəllim heyətinin yetişməməsi.

Bu dissertasiyada müxtəlif istiqamətləri olan bir problem bütöv bir baxışla işlənmişdir. Bunun sayəsində, irəlidəki işlər ilə genişləndirilib düzəldilərək, kəmanənin inkişaf etdirilməsi üçün izlənilən əhatəli bir istiqamət yaradılmağa çalışılmışdır.

**Mövzunun işlənmə dərəcəsi.** Olduqca geniş əhatə dairəsi olan işin ortaya çıxarılma prosesində, əvvəlcə araşdırmaçının istər təhsil müddəti (1982-1992), istərsə də 1992-ci ildən etibarən icra etdiyi müəllimlik və ifaçılıq fəaliyyətləri boyunca əldə etdiyi məlumat və təcrübədən istifadə olunmuşdur. Bununla yanaşı, Azərbaycan və Türkiyədə bu sahədə fəaliyyət göstərən digər ifaçı və müəllimlərlə də müxtəlif işlər aparılmışdır. Qənaətlərimizi dəstəkləmək və təsdiqləmək məqsədi ilə bir çox müxtəlif mənbələrdən faydalanmışıq.

Kəmanənin quruluşunun inkişaf etdirilməsi məqsədilə həyata keçirilən akademik işlər araşdırmalarımızın ilk dövrlərindən başlanmışdır. C.Açının 1975-ci ildən sonra İstanbul Texniki Universiteti Türk Musiqisi Dövlət Konservatoriyasında reallaşdırdığı işlər[1] kəmanədə ağacdan istifadənin araşdırılması baxımından əhəmiyyətlidir. Ancaq kəmanənin quruluş baxımından inkişaf etdirilməsi məqsədilə həyata keçirilən səylərə əsl töhfəmiz təxminən iyirmi ildən çox kəmanə ustası olan Necmi Berbergil ilə reallaşdırılan müxtəlif araşdırmalardır. Digər tərəfdən, C.Açının şagirdləri olan S.Y.Açın[2] və V.Yeğin[3] tərəfindən görülən işlər vardır və tərəfimizdən qiymətləndirilmişdir.

Yaylı bir çalğı aləti olaraq kəmanə tarixinin ortaya qoyulması baxımından, xüsusilə qədim Ərəb və Türk qaynaqları əhəmiyyətlidir. Bu qaynaqlar yaxın dövrdəki araşdırmaların əsasını təşkil edir. Araşdırılan mövzunun əhatə olunması baxımından M.R.Qazimihalın ıklığ musiqi aləti

---

[1] Açın C. Enstrüman Bilimi (Organoloji). İstanbul: Yenidoğan Basım Evi; 1994.
[2] Açın SY. Türk Halk Müziği yaylı sazlarından kemanenin doguşu, yapımı ve ailesinin oluşması. İstanbul Teknik Üniversitesi, 1993.
[3] Yeğin V. Kemanede yeni yapım teknikleri. İstanbul Teknik Üniversitesi, 1994.

haqqındakı çalışması[1] ən əhəmiyyətli qaynaqlardan biridir. Ancaq, 1900-cu illərin əvvəlindən etibarən mövzu ilə bağlı Qərb qaynaqları da meydana gəlmişdir. M.R.Qazimihal (1900-1961) tərəfindən kəmanənin Anadoluda Teke Yöresinde çalındığı ifadə edildiyinə və L.E.R.Picken tərəfindən bu məlumat təkrarlandığına[2] görə, biz kəmanənin tədqiqi (kəmanənin çalğısı, kəmanənin istifadə sahələri və icrada tətbiqi texnikaları) baxımından sahə araşdırmasını həyata keçirmişik.

Azərbaycan musiqişünaslığında kamança aləti ilə bağlı məlumat bir sıra tədqiqatlarda öz əksini tapmışdır. Xüsusilə xalq çalğı alətlərinin təkmilləşdirilməsi məsələləri dahi Azərbaycan bəstəkarı və musiqişünası Üzeyir Hacıbəylinin və onun müasirlərinin diqqət mərkəzində olmuşdur. Milli musiqi alətlərinə not sisteminin tətbiqi və xalq çalğı alətləri orkestrinin yaradılmasında Ü.Hacıbəylinin ən yaxın köməkçisi olmuş görkəmli bəstəkar və dirijor Səid Rüstəmovun "Tar məktəbi" (Bakı, 1938) dərsliyi alətin tədrisi prosesində qiymətli vəsait olub, bu gün də istifadə olunur. Görkəmli dirijor və bəstəkar, xalq musiqi bilicisi Əfrasiyab Bədəlbəylinin "İzahlı-monoqrafik musiqi lüğəti"ndə (Bakı, 1969) xalq çalğı alətləri, ifaçılıq sənəti və musiqi tarixində xüsusi yeri olan ifaçılar haqqında və onların sənətə gətirdikləri yeniliklər haqqında qiymətli məlumat əldə edirik.

Azərbaycan musiqişünaslığında xalq çalğı alətlərinin öyrənilməsi XX əsrin ikinci yarısında daha geniş vüsət almışdır. Azərbaycan musiqi elminin bir qolu kimi alətşünaslığın inkişafında xüsusi xidmətləri olan musiqişünas Səadət Abdullayeva öz elmi yaradıcılığında xalq çalğı alətlərini çox əhatəli surətdə tədqiq etmişdir. O, "Azərbaycan xalq çalğı alətləri" (Bakı, 2002) adlı musiqişünaslıq-orqanoloji tədqiqatında Azərbaycanda yayılmış xalq çalğı alətlərinin təsnifatını vermiş, onların növlərini ölçülərinə, quruluşuna, səslənmə keyfiyyətinə, ifaçılıq xüsusiyyətlərinə görə səciyyələndirmiş, xalq çalğı alətlərinin, o cümlədən, kamançanın texniki və bədii imkanlarını xarakterizə etmişdir.

Musiqişünaslıqda Azərbaycan xalq çalğı alətlərinə həsr olunmuş bir sıra əsərlər xüsusi yer tutur. O.Quliyevin "Azərbaycan xalq çalğı alətləri orkestri" (1980), Ə.Rəhmətovun "Azərbaycan xalq çalğı alətləri və onların orkestrdə yeri" (1980), S.Ələsgərov və S.Abdullayevanın "Azərbaycan xalq çalğı alətləri və orkestrləşdirmə" (1996), M.Kərimovun "Azərbaycan xalq

---

[1] Gazimihâl MR. Asya ve Anadolu Kaynaklarında Iklığ. Ankara: Ses ve Yel Yayınları; 1958.

[2] Picken LER. Folk Musical Instruments of Turkey. London: Oxford University Press; n.d.

çalğı alətləri" (2002), A.Məmmədovun "Simli musiqi alətlərimiz" (2001), A.Nəcəfzadənin "Azərbaycan çalğı alətlərinin izahlı lüğəti" (2004), F.Əzimlinin "Azərbaycan xalq musiqisinin qısa lüğəti" (2000) kimi əsərlər bu qəbildəndir.

Xüsusi olaraq, kamança aləti ilə bağlı dissertasiya səviyyəsində aparılmış tədqiqat kimi, Yaqut Seyidovanın "Azərbaycan bəstəkarlarının əsərlərində kamançanın istifadə və ifa xüsusiyyətləri" (2008) mövzusunda sənətşünaslıq üzrə fəlsəfə doktoru dissertasiyasında kamançanın, əsasən, bəstəkar yaradıcılığında istifadə xüsusiyyətlərinə, ifaçılıq məziyyətlərinə və s. məsələlərə baxılmışdır.

Xalq çalğı alətləri üzrə ifaçılıq sənətinin inkişaf yollarının öyrənilməsi baxımından XX əsrdə meydana gələn ayrı-ayrı xalq çalğı alətlərinin tədrisi ilə bağlı muğam və not üzrə proqramlar da xüsusi əhəmiyyətə malikdir. Kamança tədrisi ilə bağlı çoxsaylı dərs vəsaitləri, metodik tövsiyələr, elmi məqalələr çap olunmuşdur. Onlardan C.Həsənovanın (1940), R.Mirişlinin "Kamança məktəbi" (1970) dərsliklərini xüsusi qeyd etməliyik.

Təbiidir ki, elmi ədəbiyyatın cəlb olunması və sistemləşdirilməsi Azərbaycanda kamança ifaçılığının inkişaf yollarının öyrənilməsini və digər xalqların musiqi mədəniyyətindəki bənzər alətlərin müqayisəli şəkildə öyrənilməsini təmin edə bilər.

**Dissertasiyanın elmi yeniliyi.** İlk dəfə reallaşdırdığımız bu araşdırma sayəsində, kəmanə icrasında özünü göstərən texniki problemlər və kəmanə təhsilini çətinləşdirən müxtəlif problemlər ortaya qoyulmuşdur. İstifadə edilən materialların, izlənilən istehsal üsullarının, ölçü və formaların fərqli olması baxımından, illər ərzində tərəfimizdən yaradılan inkişaf etmiş kəmanə xüsusi bir töhfəmizdir. Çünki inkişaf etmiş kəmanə yuxarıda müəyyən olunan problemlərin həlli imkanlarını təmin etmək üzrə təməl olmuşdur. Həyata keçirilən araşdırmanın ən əhəmiyyətli elmi yeniliyi isə, ortaya qoyduğumuz problemlərin həlli istiqamətində təkliflərin təqdim olunmasıdır. Aşağıda tərəfimizdən təyin olunan problemlər və əlaqədar həll təklifləri maddələr halında sıralanmışdır:

1. Kəmanədə köklənmə problemi: sabit bir köklənmə sisteminin tətbiqinin vacibliyi;
2. Kəmanənin quruluşunun standartlaşdırılması və yayılmasının vacibliyi;
3. Kəmanədə təhsilin zəifliyi: təməl təlim (anlayışlar və s.) və texniki (icraçının duruşu və aləti tutması, kəmanənin simləri və səsləri) problemlərin həlli üçün tətbiq oluna biləcək bir proqramın təklif olunması.

Beləcə, kəmanə alətinin gələcək nəsillərə inkişaf etdirilərək ötürülməsini təmin etmək üzrə faydalanma yolları ilk dəfə ortaya qoyulmuşdur. Kəmanənin istifadə sahəsinin və imkanlarının genişləndirlə bilməsi baxımından bu işin elmi yeniliyinin əhəmiyyətli olacağına ümid edirik.

**Tədqiqatın məqsəd və vəzifələri.** İşimizin əsas məqsədi, Türk xalq çalğı aləti olan kəmanənin inkişaf etdirilməsinə önəm verməkdən ibarətdir. Bu məqsədlə, kəmanənin struktur xüsusiyyətləri, çalğı texnikası və təhsili ilə əlaqədar problemlərin həll olunması hədəflənmişdir. Araşdırmamızın nəticəsində aşağıdakı vəzifələr yerinə yetirilmişdir:

1. Kəmanənin tarixi inkişafının açıqlanması və mövcud vəziyyətinin (məşhurluq, Anadoludakı istifadə şəkli və s.) ortaya qoyulması;
2. Standart xüsusiyyətlərə sahib kəmanə (ölçüləri, formaları, simleri və s.) istehsalının genişləndirilməsinin vacibliyinin önə çəkilməsi;
3. Kəmanəyə məxsus orkestr əsərlərinin yaradılması və fərqli layihələrdə orkestr daxilində istifadə üçün köklənmənin sabitlənməsinə ehtiyacın müəyyən edilməsi və uyğun bir köklənmə sisteminin üzə çıxarılması;
4. Tərəfimizdən təklif olunan köklənmə sisteminin tətbiqi zamanı kəmanənin transpozisiyalı bir çalğı aləti olduğunun göstərilməsi;
5. Kəmanə təhsilinin doğru bir şəkildə verilməsi baxımından ehtiyac duyulan metodların yazıla bilməsi üçün lazımlı olan təməl prinsiplərin (duruş, tutuş və s.) yaradılması;
6. Təkmilləşdirilməsinə ehtiyac duyulan digər Türk xalq çalğı alətlərinin inkişaf etdirilməsi üçün örnək olan bir rəhbərliyin yaradılması.

Beləcə, inkişaf etdirilmədiyi təqdirdə istifadədən düşmə riski ilə qarşı-qarşıya olan kəmanənin gələcəyini təmin etməyi arzulayırıq və məqsədəuyğun hesab edirik.

**Tədqiqatın metodoloji əsasları.** Araşdırmanın təməlini yaratmaq üzrə: kəmanə ifaçılığı və təlimi sayəsində əldə etdiyimiz praktik təcrübə və bu müddətdə həyata keçirilən müşahidələr əsas götürülmüşdür. Ayrıca, alətin struktur quruluşunun inkişaf etdirilməsi üçün çalğı aləti ustaları ilə bərabər ortaya qoyduğumuz böyük həcmdə təcrübi məlumatdan istifadə olunmuşdur. Müşahidələrimizin və istehsalın əsaslandırılması üçün isə, sahə araşdırmalarından, ifaçılarla və müəllimlərlə aparılan müxtəlif görüşmələrin nəticələrindən, geniş əhatəli ədəbi mənbələrdən və tədqiqatlardan istifadə olunmuşdur.

Kəmanənin inkişaf etdirilməsi məqsədilə, əvvəlcə kəmanənin tarixi inkişafı araşdırılmış və gələcəyə istiqamətlənən irəliləmə imkanları qiymət-

ləndirilmişdir. Kəmanə təhsilinin yaxşılaşdırılması məqsədi ilə universitetlərimizdə kəmanə təhsili üzrə proqramlar və tədris planları qarşılaşdırılmış və Azərbaycan kamançası ilə müqayisə edilmişdir. Ayrıca, kəmanə təhsili əsnasında ortaya çıxan gözlədiyimiz problemlərin, araşdırılmalarımızın nəticəsində mümkün həlli yolları göstərilmişdir.

**Tədqiqatın obyekti**. Tədqiqatımız, az inkişaf etmiş bir Türk xalq çalğı aləti olan kəmanənin təkmilləşdirilməsi üçün həlli vacib müxtəlif problemlərə həsr olunmuşdur. Əvvəlcə, kəmanə alətinin tarixi inkişafı və mövcud struktur problemləri araşdırılmışdır. Ardınca, alətin texniki problemləri və tədrisi ilə əlaqədar problemlər təsbit edilmiş və həlli yolları təqdim edilmişdir.

**Tədqiqatın faktiki materialı**. Dissertasiya mövzusu üzrə tədqiqatda dörd əsas mənbədən istifadə edilmişdir. Birincisi, araşdırmaçının İstanbul Texniki Universiteti Türk Musiqi Dövlət Konservatoriyasında kəmanə təhsili üzrə davam etdirdiyi akademik işlər sayəsində əldə edilən təcrübə əsas götürülmüşdür. İkincisi, şəxsi təcrübələrlə yanaşı, birbaşa kəmanənin və Anadoludakı kəmanəyə bənzər çalğı alətlərinin mövcud vəziyyətinin təyini məqsədilə tərəfimizdən həyata keçirilən sahə araşdırmalarından istifadə olunmuşdur. Üçüncüsü, araşdırmanın təhsillə əlaqədar hissələrindən istifadə edilmək üzrə İstanbul Texniki Universitetinin xaricindəki universitetlərdə kəmanə təhsili verən müəllimlərlə keçirilən fərdi görüşlərin nəticələrindən istifadə olunmuşdur. Son olaraq, yuxarıda ifadə edilən vəsaitlərdən əlavə, araşdırmanı genişləndirə bilmək və əldə edilən məlumatı qiymətləndirə bilmək üçün yerli və xarici ədəbiyyata (məqalə, kitab və s. nəşrlər) müraciət olunmuşdur.

**Dissertasiyanın təcrübi əhəmiyyəti**. Apardığımız tədqiqat prioritetli olaraq kəmanə ifaçıları, müəllimlər və şagirdlər üçün, xalq musiqi tədqiqatçıları, etnomusiqişünaslar, musiqi aləti ustaları və mövzu ilə əlaqədar müxtəlif musiqiçi və musiqisevərlər üçün nəzərdə tutulmuşdur. Bu səbəbdən, gələcəkdə reallaşdırılacaq bir çox akademik işlərdə (dissertasiya, məqalə və s.) və bədii layihələrdə tədqiqatımızın nəticələrindən istifadə edilə bilər.

**Tədqiqatın perspektivləri və təkliflər.** Az tədqiq olunmuş bir sahə ilə maraqlandığımız üçün, araşdırılan problemlər üzrə digər tədqiqatçıların dəstəyinə ehtiyac duyulur. Tədqiqatımız olduqca geniş əhatəli olduğundan, yeni işlər üçün çıxış nöqtəsi ola bilər. Çünki müxtəlif mövzular yaxın olduqca görüş, qiymətləndirmə və nəticələrimizin inkişaf etdirilməsi mümkündür. Məsələn, çalğı alətinin struktur xüsusiyyətlərinin təkmilləşdirilməsi

ilə bağlı təklifin çalğı aləti ustaları və alimlər tərəfindən dəyərləndirilməsi alətin ifa bacarığını artıra bilər. Digər tərəfdən, çalğının səs xüsusiyyətləri səs fizikası mütəxəssislərinin və riyaziyyatçıların marağına uyğundur. Müasir texnologiyanın imkanlarından istifadə etməklə reallaşdırılan müxtəlif ölçmələr və hesablamalar alətin inkişafını əhəmiyyətli dərəcədə təmin edə bilər. Ayrıca, təkliflərimiz həyata keçirildiyi vaxt bəstəkarların kəmanə üçün orkestr əsərləri yazması mümkün və daha asan olacağından, bəstəkarların mövzuya müraciəti təklif edilir. Bənzər şəkildə, tərəfimizdən təmələri atılmış olan "təkmilləşmiş kəmanə metodu"nun əlaqədar alimlər və ya sənətkarlar tərəfindən yazılmasına ümid edirik. Beləcə, mövzu ilə bağlı olaraq gələcəkdə yerinə yetirməyi planlaşdırdığımız işlər üçün, digər alim və sənətkarlar ilə reallaşdırılan əməkdaşlıq imkanlarına yol açılacaqdır.

**Dissertasiyanın aprobasiyası.** Dissertasiya Bakı Musiqi Akademiyasının "Azərbaycan xalq musiqisinin tarixi və nəzəriyyəsi" kafedrasında yerinə yetirilmiş və müzakirəyə təqdim edilmişdir. Tədqiqatın elmi müddəaları və nəticələri müəllifin müxtəlif konfranslardakı məruzələrində, elmi jurnallarda nəşr olunmuş məqalələrində öz əksini tapmışdır.

**Dissertasiyanın quruluşu.** Dissertasiya giriş, üç fəsil, 6 bölmə, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **Giriş** bölməsində mövzunun aktuallığı əsaslandırılır, onun elmi işlənmə səviyyəsi, elmi yeniliyi açıqlanır, tədqiqatın məqsəd və vəzifələri, metodoloji əsası, təcrübi əhəmiyyəti müəyyənləşdirilir.

**Dissertasiyanın I fəsli "Kəmanə / kamança tipli analoji çalğı alətlərinin tarixi inkişafı" adlanır.** Bu tədqiqatda ilk növbədə, kəmanənin tarixi inkişafı, çalğı alətinin əldə olunan növləri, hazırlanma texnikası, istifadə olunan köklər, çalğı üsulları və icra imkanları araşdırılmışdır. Daha sonra, kəmanənin digər çalğı alətləri ilə müqayisəli olaraq tədrisi məsələləri araşdırılmışdır.

Anadolu və Yaxın Şərq coğrafiyası minlərlə ildir müxtəlif mədəniyyətlərin beşiyi olmuşdur. Həmin mədəniyyətlər bu uzun zaman içərisində son dərəcə zəngin bir mədəni miras buraxmışlar. Bu mədəni irsin ən əhəmiyyətli bünövrə daşlarından biri musiqi mədəniyyətidir. Çalğı alətləri də bu mədəniyyətin ən əhəmiyyətli ünsürünü təşkil edir. Qeyd olunan

coğrafi ərazi, çalğı alətlərinin müxtəlifliyi baxımından son dərəcə zəngin bir quruluşa malikdir. Yaxın Şərq xalqlarının hər biri, zaman içərisində bir-birlərinin musiqi ənənəsindən və çalğı alətlərinin zənginliyindən də təsirlənmişlər.

Kəmanə, kamança və bu çalğı alətlərinin növləri, haqqında danışdığımız zəngin mədəni irsin daxilində əhəmiyyətli yer tutmuş, müxtəlif dəyişikliklərə uğramasına baxmayaraq, keçmişdən günümüzə çatmış və hər dövrdə rəğbət qazanmış çalğı alətlərindəndir. Son dərəcə köklü bir keçmişi olmasına baxmayaraq, bu çalğı alətlərilə əlaqədar aparılan tədqiqatlar olduqca azdır. Ümumiyyətlə, ənənəvi istifadədə məhdud qalıb, professional mənada görülən işlər yaxın bir zamana əsaslanır.

Dissertasiyada xalq musiqisi aləti olan kəmanənin Orta Asiyadan Anadoluya gətirilməsinə qədər keçən beş yüz illik bir tarixi dövrün şərhi verilmişdir. Orta Asiya xalqlarının davamlı köçləri səbəbindən, İranda, Azərbaycanda, nəhayət, Anadoluda sosial və fiziki şərtlərin dəyişməsinə uyğun olaraq, dəyişikliyə məruz qalan kəmanə çalğı alətinin tarixinin izahına çalışmışıq. Tarixi inkişafla yanaşı, kəmanənin xüsusilə son illərdə Türk xalq musiqisinin əsas çalğı alətlərindən biri olması əsnasında meydana çıxan problemlər də qiymətləndirilmişdir. Kəmanə, kamanca və rebaba bənzər çalğı alətləri, aparılmış təsnifata, indiki vaxtda qədər qəbul edilmiş Kurt Zaks - Horn Bostel sisteminə əsaslanaraq, “Chordophones” (Xordofonlular) başlığı altında daxil edilmişdir[1].

Dünyanın fərqli bölgələrində bir-birinə bənzəyən bir çox çalğı alətləri mövcuddur. Təbii olaraq, oxşar çalğı alətləri fərqli mədəniyyətlərdə fərqli adlarla tanınır. Müasir dövrdə Türkiyədə “kaman” olaraq adlandırılan çalğı alətinə Avropada “viola” deyilməsi bu vəziyyətə nümunə ola bilər. Eyni zamanda, olduqca bənzər adlarla xatırlanan çalğı alətləri bir-birindən çox fərqli xüsusiyyətlərə də sahib ola bilər. Ayrıca, “kəmanəçi”, “kamançe”, “kamança” və “kemençe” sözlərinin bəzi tərcümələrində bir-birinin yerinə istifadə olunması termin qarışıqlığına gətirib çıxarır.

Anadoluda hazırlanmasında daha çox sukabağından (balqabaq) istifadə olunduğu üçün “kabak kəmanə” deyilən kəmanə Qazimihal tərəfindən bir ıklığ növü olaraq göstərilmişdir[2]. Iklığın bir qopuz törəməsi

---

[1] Blench RM. The morphology and distribution of sub-Saharan musical instruments of North-African, Middle Eastern and Asian origin. In: Picken LER, editor. Music. Asiat., vol. 4, Cambridge University Press; 1984, p. 155-91.

[2] Gazimihâl MR. Yine “ıklığ” hakkında. Türk Folk Araştırmaları 1953;53:833–4.

olduğunu və ərəbcəyə “rebap”, farscaya isə “kamance” olaraq keçdiyi də yenə Qazimihal tərəfindən ifadə edilmişdir. Qazimihala görə “Xalq dilində ıklığ, elmi dildə isə kamançe (nadir hallarda “rebab”) eyni bir alətin adlarıdır: üç ayrı simli alətdən bəhs edilmir. Bu səbəbdən, kəmanə ilə əlaqədar tarixi məlumatların araşdırılması üçün qopuzdan başlanmasını və sıra ilə ıklığ, kamançe və rebapın açıqlanmasını uyğun görərək, bu istiqamətdə tədqiqat aparmışıq.

**Dissertasiyanın II fəsli “Kəmanənin növləri, quruluş xüsusiyyətləri, çalğı texnikası və köklənmə məsələsi” adlanır. Bu fəsil dörd bölmədən ibarətdir: 2.1. “Kəmanənin növləri”; 2.2. “Kəmanənin quruluşunun araşdırılması”; 2.3. “Kəmanənin standartlaşdırılması”; 2.4. “Kəmanənin çalğı texnikası və köklənmə məsələsi”.**

**Fəslin birinci bölməsi (2.1.) “Kəmanənin növləri”nin araşdırılmasına həsr olunmuşdur.** Kəmanənin inkişaf etdirilməsi üçün indiki vaxtda varlığını davam etdirən kəmanəyə bənzər çalğı alətlərinin tarixi inkişafının yanında, xüsusiyyətlərinin də araşdırılması faydalı olacaq. Beləcə, bu andakı halları ilə kəmanədən daha inkişaf etmiş olan çalğı alətlərinin mövqelərini necə əldə etdiklərini dəyərləndirə bilərik. Ayrıca, kəmanədən daha inkişaf etmiş və ya istifadədən düşmək üzrə olan kəmanəyə bənzər alətlərin vəziyyətinin ortaya qoyulması faydalı olacaq. Bu araşdırma sayəsində müxtəlif baxımlardan kəmanəyə bənzəyən çalğı alətlərinin kəmanə ilə müqayisə olunması asanlaşacaq. Bizim tərəfimizdən Anadoluda apardığımız araşdırmalarımızın nəticəsində təsbit edilən kəmanəyə bənzər yaylı çalğı alətlərinin izahı verilmişdir. Təsbit edilən çalğı alətləri - ıklığ, eğit, yörük kəmanəsi və dırnaq kəmanə olmaq üzrə, kəmanəyə olan bənzərliklərinə görə araşdırılmışdır.

Həyata keçirdiyimiz sahə araşdırmaları nəticəsində, Teke Yöresi[1] rayonlarından olan Antalya və ətrafında (xüsusilə dağlıq bölgələrdə) “ıklığ” adlı alət nadir olsa da, çalındığı öyrənilmiş və bir nümunəsi bizim tərəfimizdən müşahidə edilmişdir. Lakin yalnız Teke Yöresində rast gəldiyimiz bu çalğı alətinin, açıqlanan “ıklığ” ilə əlaqəli olmasına qarşı, eyni olmadığı diqqəti cəlb edir. Kəmanəyə olduqca bənzəməsi və kəmanənin bilinən ən yaxın əcdadı olan çalğı aləti ilə eyni adı daşıması səbəbindən, bu çalğı aləti

---

[1]TekeYöresi – Burduruntamamı, Denizlinin; Acıpayam, Çameli, Kızılhisar, Honaz, Çivril, İspartanın; Yalvaç, Şarkikaraağaç, Afyonkarahisarın; (Afyon) Dinar, Başmakçı, Antalyanın; Elmalı, Finike, Demre, Korkuteli ile Muğl'nın; Fethiye ve Ortaca rayonlarını əhatə edən vilayətin adıdır.

üzərində əhəmiyyətli dərəcədə araşdırma aparmışıq. Aşağıda, ıklığın Anadoluda istifadə olunan mövcud halının necə təsbit edildiyi və çalğı alətinin hazırlanma xüsusiyyətləri açıqlanmışdır.

Eğit, mənşəyi Orta Asiyaya dayanan simli bir çalğı alətidir. Qazimihalın ifadələrinə görə, eğit ıklığdan şəklinə görə fərqli olmasına qarşı, yenə gövdəsi kabakdan hazırlanan bir alətdir. Bu çalğı aləti Adana bölgəsinin Güneyindəki bəzi Türkmən Ovalarında rast gəlinir və kəndlilər tərəfindən hazırlanır. Eğitin Qaziantep, Şanlıurfa, Teke Yöresi və Çukurova bölgələrində də çalındığı Yalgın tərəfindən ifadə edilmişdir. Ögel isə eğiti, kopuzun Qərbdəki bir davamı olaraq qiymətləndirməklə, əkinçi Türklərin (Cənubi Anadoludakı Yörüklər kimi) istifadə etdiyi bir növ “kabak kemençe” olaraq ifadə edir.

Kəmanə çalğı aləti Anadolunun müxtəlif bölgələrində “kemen”, “kəmanə” olaraq da xatırlanır. Bu cür ad bənzərliyi səbəbi ilə “yörük kəmanəsi” araşdırılması lazım olan bir çalğı alətidir. Ögel, eynilə eğit kimi yörük kəmanəsinin də, bir növ “kabak kemençe” olub, “qopuz”un Qərbdəki bir davamı olduğunu ifadə edir. Bu səbəbdən, bu Türk çalğı alətinin də Orta Asiya mənşəli olduğunu söyləyə bilərik. Bəzi yerlərdə “yörük kəmanəsi”nə “çoban kəmanəsi” də deyilir. Ayrıca, Teke Yöresində müşahidə üzrə, “kemane” yerinə “kemene” ifadəsi istifadə edilir.[1]

Hal-hazırda Anadoluda çalınan və eyni zamanda “yörük kəmanəsi”nə bir çox baxımdan bənzəyən bir başka çalğı aləti “dırnak kəmanə”dir. Xüsusilə Kastamonu və onun ətrafında geniş yayılmışdır. Çalğı alətinin simlərinin dırnaq təması ilə çalınması səbəbindən bölgədə yaşayan xalq tərəfindən “dırnaq kəmanə” adlandırılması bölgədəki ifaçılar tərəfindən təsdiq olunur.

Azərbaycan musiqisinin əsas yaylı çalğı alətlərindən biri olan kamança açıqlanan “kaman”, “kəmanə” və buna bənzər alətlərilərin ən yaxın törəmələrindən biridir. Azərbaycanın bəzi bölgələrində bu çalğı alətinə “vızqan” (Şuşa, Şərur), “mizgan” (Cəbrayıl, Şəki), “mizqon” (Tovuz), “Mişka” (Quba) da deyilir. Azərbaycandan xaricdə, qonşu ölkələrdə, digər Türk dövlətlərində və İranda kiçik fərqlərlə kamançaya olduqca bənzəyən çalğı alətləri istifadə edilir.

---

[1]Yörük kəmanəsi və dırnaq kəmanənin quruluş etibarilə kəmanədən olduqca fərqli olduğuna diqqət edilməlidir. Ancaq, hər ikisi də simli olmaları, tutuş şəkillərinin kəmanəyə yüngülcə bənzəməsi (diz üstündə tutularaq çalınmaları kimi) və çox açıq bir şəkildə ad bənzərliklərinin olması səbəbilə, “kəmanə” başlığı altında araşdırılmışdır.

Müasir Azərbaycan musiqisinin banisi olan böyük Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin Azərbaycan ənənəvi musiqisi və çalğı alətlərinə əsaslanan qiymətli işləri sayəsində kamança icraçılığı və təhsili yaxın coğrafyalardakı kamança törəməsi çalğı alətləri ilə müqayisədə olduqca yüksək bir səviyyəyə çatmışdır. Azərbaycanda tar, kamança və digər xalq çalğı alətləri sahəsində, xüsusilə XX əsrin əvvəllərindən etibarən reallaşdırılan qiymətli işlər, Türkiyədə də inkişaf etdirilməyə ehtiyacı olan xalq çalğı alətləri üçün atılacaq addımlarda nümunə təşkil edə biləcək bir potensial daşıyır.

**Dissertasiyanın II fəslinin ikinci bölməsi (2.2.) "Kəmanənin quruluşunun araşdırılması" ilə bağlıdır.**

Kəmanənin çalğı texnikasının təknilləşdirilməsi və tədrisi ilə birlikdə istifadəsinin genişləndirilə bilməsi üçün, çalğı alətinin struktur baxımdan inkişaf etdirilməsi ən prioritetli mövzulardan biridir. Anadoluda, folklor xüsusiyyətinə uyğun olaraq, kəmanənin hazırlanması kənddəki imkanlar çərçivəsində davam etdirilir. Bu baxımdan, Anadoluda məşhur olan ənənəvi istehsal anlayışı və istifadə edilən vəsaitlər tərəfimizdən araşdırılmış və dəyərləndirilmişdir. Ancaq bu ənənəvi istehsal tərzi, çalğı alətinin şəhərdə hazırlanması prosesini, istifadə olunmasını və geniş yayılmış akademik təhsilini çətinləşdirir. Bu səbəbdən, dəyişən tələbləri qarşılamaq üzrə, bəzi alət ustaları yeni materialların və üsulların istifadəsini gündəmə gətirmişdir.

Ortaya qoyulan səylər əsasən kəmanə istehsalında sukabağının (asma balqabaq) istifadəsindən qaynaqlanan problemləri aşmağa istiqamətlənir. Bu məqsədlə, bəzi çalğı aləti ustaları ağac təknəli (çanaqlı) kəmanələrin istifadəsini nəzərdə tutan yeni üsulları inkişaf etdirmişdir. Aşağıda, ağacın üstünlükləri və çanaq istehsalında ağacdan istifadənin kəmanə ailəsindən olan alətlərin hazırlanmasındakı müsbət rolu tərəfimizdən açıqlanmışdır.

Hal-hazırda Türk xalq musiqisinin əsas yaylı çalğı alətidir və Türkiyəyə geniş yayılmışdır. Təkə Yöresində "kemen" və ya "kəmanə" adı ilə ifadə edilən bu çalğı aləti, ümumiyyətlə, "kabak kəmanə" olaraq xatırlanmaqdadır. Anadolunun Güneybatısında isə bu çalğı alətinə qısaca "kabak" (balqabaq) da deyilir. Ancaq indiki vaxtda çalğı alətinin qısaca "kəmanə" olaraq adlandırılması böyük şəhərlərdə geniş yayılmışdır.

Anadolunun fərqli bölgələrində istifadə olunan kəmanələr hazırlanma vəsaitinin seçilməsi və istifadə nisbətləri baxımından müxtəlifdir. Bunun ən əsas səbəbi, yerli alət ustalarının çalğı alətləri istehsalını yerli imkanlar və seçimlər çərçivəsində reallaşdırmasıdır. Yörədən bölgəyə fərqlilik göstərən

xüsusiyyətlər belə sıralana bilər: təknənin (çanağın) hazırlandığı vəsaitlərin müxtəlifliyi, dəri seçiminin dəyişməsi və fərqli sayda simdən istifadə olunması. Kəmanə təknəsinin istehsalında əsasən üç növ vəsait istifadə olunur: sukabağı (asma balqabaq), kokos və müxtəlif ağaclar. Ancaq, fərqli metallar və dəniz ilbizinin qabığı kimi müxtəlif materialların sınandığı kəmanələr də hazırlanmışdır. Bu vəsaitlər arasından, Anadoluda ən məşhuru və çox seçiləni, bilindiyi kimi, sukabağıdır. Dəri olaraq ümumiyyətlə heyvan dərisi (oğlaq, balıq kimi) və ürək pərdəsi (oğlaq kimi) istifadə edilir. Sim baxımından ortaya çıxan fərqlilik isə, bəzi ustaların dörd yerinə hələ də üç simi olan kəmanəni hazırlanmasından qaynaqlanır.

Kəmanə çalğı aləti əsasən, gövdə (çanaq), sap (qol), burğuluk (aşıxlar) və ayaq (şiş) hissələrindən və yaydan ibarətdir. Bu təməl hissələrinin xaricində gövdəyə bağlanmış dəri, xərək və sim takozu (paz, klin); qola bağlanmış simlər (qrif) və üst xərək kimi vahidlər çalğı alətinin bölümləridir.

Kabak kəmanənin ənənəvi olaraq necə hazırlandığını və necə çalındığını yerində müşahidə etmək və detalları üzə çıxarmaq məqsədilə Burdurda sahə araşdırmalarını reallaşdırdıq. Araşdırmalarımın əsnasında, Tahsin Yarar və İzzet Çiloğlu ilə müsahibələr apardıq. Xüsusilə, kəmanə istehsalını və icrasını davam etdirən T.Yarardan sukabağının istifadəsi haqqında ətraflı məlumat toplanmışdır.

**Standartlaşdırılmış kəmanənin yayılması.** Əvvəlcə standart hala gətirilmiş kəmanənin tutulma və çalınmasının asanlığı təmin edildikdən sonra, çalğı alətinin tədrisində çatışmazlıqlar aradan qaldırılması halında, texniki olaraq çalğı alətinin ifaçılarının yetişdirilə biləcəyini hesab edirik. Bu standartlaşma musiqi təhsilində özünü intizam anlayışı çərçivəsində göstərəcək.

Hal-hazırda yaradıcılıq qədər təşkilatçılığın da musiqinin irəliləməsində təsirli olduğu görünür. Müəyyən bir nizam-intizam çərçivəsində yetişən bu ifaçıları eyni standart təhsil alacaqlarına görə, hazırda mövcud ifaçıların rastlaşdığı yan-yana eyni anda çalma çətinliyini yaşamayacaklar. Bu səbəbdən, irəlidə yaradılacaq bir kəmanə ailəsinin layihə səviyyəsində qalmayıb gündəlik istifadəyə keçə bilməsi imkanı meydana gələcək.

Bununla yanaşı, kəmanənin texniki imkanlarını cəlb etməklə çalğı alətini daha da inkişaf etdirə bilmək üçün xalq mahnılarının yanında mütləq dəyişik formalarda yeni əsərlər yazılmalıdır. Yazılacaq bu əsərləri yetişəcək yaxşı təhsilli ifaçıları eyni zamanda çətinlik çəkmədən icra edə biləcəklər. Çalğı alətinin istifadə sahələrinin genişləndirilməsi kəmanənin lokal bir

çalğı olmaqdan çıxaraq yayılmasına, ölkə sərhədlərinin xaricinə çıxmasına da imkan verəcəkdir.

**Kəmanə ailəsi.** Kəmanə çalğı aləti Türk xalq musiqisinin ən məşhur və çox istifadə edilən simli çalğı alətidir. Hələ qərb formatlı orkestr sistemi Türk xalq musiqisinə yerləşməmiş olsa da, gələcəkdə anlayışa uyğun olaraq yaradılacaq bir xalq musiqisi orkestrinin ən qüvvətli simli çalğı aləti kəmanədir. Bu səbəbdən, funksional bir kəmanə ailəsinin yaradılması əhəmiyyət kəsb edir.

C.Açın tərəfindən üzə çıxarılan, ancaq istifadəyə verilməyən kəmanə ailəsinin həyata keçirilməsi üçün, ilk üzvün kəmanə olaraq qorunmasının ardından, əlaqədar fiziki araşdırmalar çərçivəsində ölçülmələr edilməsində böyük fayda görürük. Beləcə, qurulan böyük bir xalq çalğı alətləri orkestrində kəmanə ailəsinin Türk xalq musiqisindəki mövcud tembrini qoruyaraq yer alması mümkün ola biləcəkdir.

Bu nöqtədə vurğulanması lazım olan bir başqa məsələ isə, bu çalğı alətlərini orkestr qaydaları və intizamı içində icra edə biləcək ifaçıların da yetişdirilməsinin vacibliyidir. Konservatoriyadakı təhsil sisteminin bu istiqamətdə yenidən nəzərdən keçirilməsi lazımdır.

**II fəslin üçüncü bölməsi (2.3.) "Kəmanənin standartlaşdırılması və kəmanə ailəsi" məsələlərinə həsr olunmuşdur.**

Yaylı bir çalğı aləti olan kəmanə çalğısının inkişaf etdirilə bilməsi üçün mövcud texniki səviyyənin müəyyənləşdirilməsi və qiymətləndirilməsi lazımdır. Bu məqsədlə əvvəlcə, Anadoluda fərqli bölgələrdə bəzən şüurlu olaraq, bəzi zamanlarda isə çalmanın asanlığı baxımından istifadə olunan fərqli köklənmə sistemləri tərəfimizdən qiymətləndirilmişdir.

Professional xalq musiqisi ifaçılarının arzu edilən inkişafı üçün sabit bir köklənmə sisteminə böyük ehtiyac vardır. Təhsil və icrada standartlaşma bu əsas məsələnin həll edilməsi ilə mümkün ola biləcək.

Mövcud ifalarda istifadə olunan köklənmə sistemi bağlama çalğı aləti ilə olduqca uyğundur. Bağlama çalğı alətinin ən məşhur köklənmə şəkli olan "bozuk düzen", kəmanənin ikinci, üçüncü və dördüncü simləri ilə eyni səslərə köklənir. Bu vəziyyət xalq musiqisi ifaçılarının ana çalğı aləti bağlama ilə kəmanənin bir yerdə icrasını asanlaşdırır.

Apardığımız araşdırmalar nəticəsində əldə etdiyimiz müddəalara görə kəmanə çalğı alətinin ənənəvi gövdə istehsalı əksəriyyətlə sukabağından hazırlanır. Lakin sukabağı standartlaşdırıla bilən bir material deyil. Bu səbəbdən kəmanə ifaçılığında və təhsilində sukabağından hazırlanmış çalğı

alətlərindən istifadə aşağıdakı növ problemlərə səbəb olur: istehsal baxımından davamlı bir vəsait deyil; birlikdə ifaçılıq imkanına yol vermir; birgə icradakı çətinliyə paralel olaraq, akademik təhsildə də bu çətinlik özünü göstərir; sukabağının nəzarət edilən bir vəsait olmaması və bunun sonunda fərqli ölçülərdə istifadəsi, dolayı da olsa standart bir köklənmə sisteminin yaradılmasına mane olur.

Əldə etdiyimiz bütün bu məlumatlar işığında, mövzu ilə əlaqədar fikirlərimiz aşağıda sıralanmışdır: çalğı alətinin standartlaşdırılması üçün onun istehsalında mütləq ağac və s. nəzarət olunan vəsaitlər istifadə edilməlidir; çalğı alətinin yuxarıda bəhs etdiyimiz şəkildə standartlaşdırılması vəziyyətində bir kəmanə ailəsi yaratmaq da mümkün ola biləcəkdir; davamlı və uzun ömürlü olması səbəbilə çalğı alətində istifadə üçün polad sim seçilməlidir; gövdənin ön səthində istifadə olunan ürek pərdəsinin həm davamsız, həm də hava şərtlərindən tez təsirlənən bir vəsait olması üzündən, oğlaq ya da balıq dərisi və ya süni dərilər istifadə edilməlidir. çalğının asanlığını və tutulma mövqeyinin düzgünlüyünü təmin edə bilməsi üçün yuvarlaq qol seçilməlidir.

**II fəslin dördüncü bölməsində (2.4.) "Kəmanənin çalğı texnikası və köklənmə məsələsi" nəzərdən keçirilir.**

Yaylı bir çalğı aləti olan kəmanə çalğısının inkişaf etdirilə bilməsi üçün mövcud texniki səviyyənin müəyyənləşdirilməsi və qiymətləndirilməsi lazımdır. Bu məqsədlə əvvəlcə, Anadoluda fərqli bölgələrdə bəzən şüurlu olaraq, bəzi zamanlarda isə çalmanın asanlığı baxımından istifadə olunan fərqli köklənmə sistemləri tərəfimizdən qiymətləndirilmişdir.

Professional xalq musiqisi ifaçılarının arzu edilən inkişafı üçün sabit bir köklənmə sisteminə böyük ehtiyac vardır. Təhsil və icrada standartlaşma bu əsas məsələnin həll edilməsi ilə mümkün ola biləcək.

Mövcud ifalarda istifadə olunan köklənmə sistemi bağlama çalğı aləti ilə olduqca uyğundur. Bağlama çalğı alətinin ən məşhur köklənmə şəkli olan "bozuk düzen", kəmanənin ikinci, üçüncü və dördüncü simləri ilə eyni səslərə köklənir. Bu vəziyyət xalq musiqisi ifaçılarının ana çalğı aləti bağlama ilə kəmanənin bir yerdə icrasını asanlaşdırır.

Dissertasiyada kəmanə üçün çox əhəmiyyətli olduğunu düşündüyümüz köklənmə problemini həll etməyə çalışmışıq. Bu mövzuda ümumi qəbul olunmuş yazılı bir metodik vəsaitin olmaması həm təhsil baxımından problem təşkil edir, həm də ifanı çətinləşdirir. Problemin həllini təmin etmək məqsədilə, tədqiqatımızda standart bir üsulun təməllini qoymağa

çalışmışıq. Beləcə, universal surətdə tətbiq oluna bilən bir təhsil və müraciət qaynağının yaradılması nəzərdə tutulub. Təklif olunan bu layihənin uyğun şəkildə qarşılandığı təqdirdə, köklənmə sistemini təhsildə və icrada standartlaşdırmağa çalışırıq.

Kəmanə ifaçılığında əksəriyyətlə "si", "do", "do-diyez" və "re" köklərinin tətbiqi tərəfimizdən təsbit edilmişdir. Çalğı alətinin struktur xüsusiyyətlərinə nəzər saldıqda, "do-diyez" və "re" kökləri yüksək tezlikli köklər olduqlarından, buna qarşılıq "si" akordunun isə təklif etdiyimiz standart kəmanə quruluşuna görə bir az bəm qaldığı özünü göstərir. Buna əlavə olaraq, "do-diyez" akordunun tonal musiqidə çox nadir istifadəsi bir başqa uyğunsuzluq olaraq önə çıxır. Mövzu ilə əlaqədar qənaətimiz bu şəkildədir: "Do" kökü, təklif etdiyimiz standart kəmanənin struktur xüsusiyyətlərinə ən uyğun köklənmə şəklidir. Bu köklənmə şəkli Türk xalq musiqisində çox istifadə olunması baxımından da ən uyğun köklənmə şəklidir. Bu kökün tonal musiqilə uyğunlaşma problemi yoxdur.

Tədqiqatın əsas məqsədi olan köklənmə (diapazon) probleminin həll olunması üçün və universal musiqi dilində etibarlı olacaq bir köklənmə sisteminin yaradılması məqsədi ilə başda Bakı Musiqi Akademiyası, Azərbaycan Milli Konservatoriyası, ilk və orta dərəcəli musiqi məktəbləri olmaq üzrə, Türkiyənin İstanbul Texniki Universiteti Türk Musiqisi Dövlət Konservatoriyası, Ege Universiteti Dövlət Türk Musiqisi Konservatoriyası, Afyon Kocatepe Universiteti Dövlət Konservatoriyası və Qaziantep Universiteti Türk Dövlət Musiqisi Konservatoriyası kimi təhsil ocaqlarındakı tədris üsulları müqayisəli olaraq araşdırılmışdır. Beləcə mövcud vəziyyət ortaya qoyulub problemlərin həllini təmin edə biləcək bir məlumat bazası yaradılmışdır.

**Kəmanə və kamança ifasında istifadə edilən başlıca texniki üsullar.** Kəmanə və kamança icra edilərkən son dərəcə zəngin, rəngarəng musiqi ifadələri və çalğı texnikaları istifadə edilir. Çalğı alətlərini xarakterizə edən, icraçının texnikasını və əhval-ruhiyyəsini əks etdirməyinə imkan verən, dinləyicidə daha dərin bir təsir buraxan ifaları, ancaq haqqında danışdığımız bu texnikaların tətbiqi reallaşmaqdadır. Kamança çalğısında bütün bu çalma üsulları təyin edilərək və standartlaşdırılmış olaraq təhsil və icrada uygulanırkən, kəmanə üçün vəziyyət daha fərqlidir.

Kəmanə ifalarında da çalğı texnikalarından əhəmiyyətli ölçüdə istifadə edilməklə birlikdə, bunların hamısı universal terminologiyadan istifadə edilərək və notasiyada göstərilərək uyğunlaşmır. Türk xalq musiqisi

ifalarında istifadə edilən notlar ümumiyyətlə vokal icraya əsaslanaraq yazıldıqları və alətlər üçün ayrı bir notasiya inkişaf etdirilmədiyi üçün kəmanə təhsili və icrasında bəhs olunan çalğı texnikalarının not üzərində göstərilməsi ancaq müəllim və ya icraçının fərdi seçiminə buraxılmış vəziyyətdədir.

**Dissertasiyanın III fəsli "Kəmanənin icra sahələri və tədrisi" adlanır. Bu fəsil iki bölmədən ibarətdir: 3.1. "Kəmanənin icra sahələri"; 3.2. "Kəmanə tədrisinin qiymətləndirilməsi və kamança tədrisi ilə müqayisəsi".**

**III fəslin birinci bölməsi (3.1.) "Kəmanənin icra sahələri"nin araşdırılması ilə bağlıdır.**

Ege bölgəsi və Teke Yöresi kəmanənin istifadə edildiyi ən məşhur bölgələrdir. Ancaq kəmanənin Türk Xalq Musiqisinin əsas yaylı çalğı aləti olması səbəbindən istifadəsi digər bölgələrə də yayılmışdır. Orta Anadoluda Bozlak, Qoşma və bənzər havalarda, Qərb Qara dəniz boyu daha erkən olmaqla, Qara dəniz sahillərində kamança və dırnaq kəmanənin istifadə edilmədiyi mahnılarda, Şərq və Cənub-şərq Anadoluda isə həm uzun, həm də bir çox qırıq hava melodiyaları icra edilir.

Teke Yöresində, xüsusilə İsparta, Burdur və Antalya bölgələrində rast gəlinən ən əhəmiyyətli melodiya növləri "Qürbət havası", "Təkə zortlatmaları" və "Boğaz havaları"dır. Bu bölgənin insanları söylədikləri uzun havalara "Qürbət havası" adını verirlər. Uzun havalar, ritmik baxımdan sərbəst melodiyalar, başqa sözlə, "parlanda" olaraq təbir edilən mahnılar qrupuna aiddir. Bu tərz Türk xalq musiqisində olduqca geniş bir şəkildə istifadə edilir.

Kəmanənin əsaslı surətdə istifadə olunduğu bölgə olan Teke Yöresindən digər bölgələrə yayılmasında, çalğı alətinin TRT-də ifa edilməyə başlanmasının təsiri böyükdür. Türkiyədə xalq çalğı alətləri ilə bağlı ilk professional toplu ifa şəkli TRT-nin 1940-cı ildən sonra zamanla artan xalq musiqisi nəşrlərinin 1941-ci ilin sonlarına doğru M.Sarısözenin rəhbərliyi ilə "Biz Türkü öyrənirik" və "Yurddan səslər" adı altında nəşrlərə başlayan birliklər olmuşdur.

Bu inkişaf müasir Türk xalq musiqisi birliklərinə təsir etmiş və xalq çalğı alətlərinin yayılıb inkişafında əhəmiyyətli rol oynamış, 1970-ci illərdə televiziyanın dövrəyə girməsi ilə təsiri daha da artmışdır. 1980-cı illərdə isə Mədəniyyət Nazirliyi Dövlət Türk xalq musiqisi xorlarının qurulması ilə

qərbdəki orkestr düşüncəsinə daha yaxın, çalğı alətləri arasında özünəxas partiyalar üzrə bölgülü bir ifa şəkli mənimsənilməyə başlanmışdır.

**Solo icra.** Türk xalq çalğı alətlərinin əksəriyyəti geniş səs diapazonuna, zəngin və təsiredici səs çalarına, yaxşı ustalar tərəfindən düzəldildiyində kafi texniki xüsusiyyətlərə sahibdir. Buna baxmayaraq, istifadə sahəsinə görə türküləri səsləndirən vokalisti müşayiət etmə kimi məhdud bir çərçivədə fəaliyyət göstərir. Çalğı alətləri ansambllarında söz ünsürünün olmadığı instrumental türkülərdə isə icra, ümumiyyətlə kütləvi və tək səsli şəkildədir. Hər iki vəziyyətdə də çalğı alətləri arasında partiyalar nadir halda bölünür. Fasılların ifası zamanı qeyd olunan kiçik həcmli sololar icraçının musiqi qabiliyyətini tam olaraq nümayiş etdirə bilmir.

Türkiyədə xalq çalğı alətlərimiz üçün xalq melodiyaları xaricində bir repertuar ortaya qoyulmamışdır. Bəstəkarlarımız xalq çalğı alətləri üçün solo əsər yaratmamışlar. Azərbaycanda tar üçün ilk konsert 1952-ci ildə, kamança üçün ilk konsert isə 1970-ci ildə yazılmış və bu tarixlərdən günümüzə qədər kiçik və böyük həcmli onlarla əsər bəstələnmişdir. Buna baxmayaraq, Türkiyədə ənənəvi xalq çalğı alətləri üçün görülən işlər yox deyiləcək qədər azdır. Başqa bir ifadə ilə, kəmanə çalğı aləti Türkiyədə professional sahədə bir solist çalğı aləti olaraq önə çəkilməmişdir.

Son illərdə Türkiyədə instrumental musiqiyə marağın artması ilə birlikdə, bəzi kəmanə sənətçilərinin solo kəmanə albomları buraxdıqları müşahidə edilir. Bu albomlarda ümumiyyətlə şifahi xalq melodiyalarının ifa edildiyi, türkünün vokal keçidlərini kəmanənin solist olaraq ifa etdiyi özünü göstərir. Ancaq bu cür nümunələrin sayı da olduqca məhduddur.

Türkiyədəki kəmanə ifaçılarının bəziləri əsasən icralarını kəmanə əvəzinə, Azərbaycan kamançası ilə reallaşdırırlar. 1970-ci illərdən sonra İstanbul Türk Universiteti Türk Musiqisi Dövlət Konservatoriyasının qurulması və xüsusilə Dos. Şenel Önaldının şəxsi səyləri nəticəsində tar çalğı alətinin və Azərbaycan musiqisinin Türkiyədə sevilib yayılmasının bir davamı olaraq, Azərbaycan kamançası da ölkədə tanınmağa başlamışdır. Bunun nəticəsində Konservatoriyada kəmanə təhsili alan Mustafa Dilekgül, Engin Demirtaş və mən, o cümlədən, bizim kimi bəzi şagirdlər də kəmanənin yanında Azərbaycan kamançasına maraq duymağa başlamışlar və zaman içərisində icralarını bu çalğı aləti ilə reallaşdırmağı seçmişlər.

Kəmanə çalğı alətinin struktur xüsusiyyətlərinin qeyri-kafiliyi kamançanın isə istər struktur, istərsə səs xüsusiyyətləri baxımından daha təminedici olması adı keçən sənətçiləri bu çalğıya yönəltmişdir. Bu sənətçilərdən

bəziləri tamamilə Azərbaycan kamançasının ifaçılıq üslubunu mənimsəyərkən, bəziləri isə kamançada kəmanə köklənməsindən istifadə edərək, bu çalğı alətindən özlərinə xas bir icra üslubu yaradıblar.

**Ansambl və orkestrlərdə icra olunması.** Çalğı alətləri ifaçıları, icra etdikləri musiqinin təsirini artırmaq və daha zəngin bir musiqi duyumu təmin edə bilmək üçün, tərzlərinə bağlı olaraq, solo icraları ilə yanaşı, digər çalğı alətləri ilə birlikdə fəaliyyət göstərirlər. Bu birlik Qərbdə orkestr olaraq adlandırılmış və istifadə edilən hər çalğı alətinin icraçısının vəzifəsi əvvəldən təyin olunmuşdur. Müasir orkestr simli, nəfəsli və zərb alətləri olmaq üzrə üç qrupa ayrılır. Orkestr içində olan çalğı alətlərinin sayına görə kiçik orkestr və böyük orkestr olmaq üzrə də iki yerə ayrılır. Bunun xaricində salon orkestri və oda orkestri kimi daha kiçik çalğı birlikləri (ansamblları) mövcuddur.

Kəmanə üçün orkestr əsəri yazılmış olmaması və hazırlanan kəmanə ailəsinin icraçılarının tapılmaması kəmanənin orkestrdə istifadəsini məhdudlaşdırmaqdadır. Bu səbəbdən kəmanə, ümumiyyətlə kiçik birliklər–ansambllar halında və ya kamera musiqisi ansambllarının tərkibində az da olsa solo çalğı aləti olaraq fəaliyyət göstərir.

Türk xalq musiqisi birliklərinin repertuarı tamamilə Türk xalq mahnılarının üzərində qurulur və unison olaraq icra edilir. Bu ənənəvi icra şəkli zamanla orkestrdəki çalğı alətlərinin və xoristlərin sayının artması ilə getdikcə inkişaf edərək günümüzə qədər gəlmişdir.

Türkiyədə xalq çalğı alətləri ansamblları, TRT və Mədəniyyət Nazirliyi birlikləri, universitet, xalq təhsil və müxtəlif dərnəklərin ansambl və xorlarında əksəriyyətini bağlama çalanların meydana gətirdiyi, ümumiyyətlə 10-30 arasında adam sayına çatan qruplar şəklindədir. Bu qruplarda əsasən icra şəkli tək səsli və ənənəvidir.

Türk xalq musiqisi birliklərində bağlama əsas çalğı aləti kimi önə çıxır. Bu vəziyyət Azərbaycan xalq musiqisində tar çalğı alətinin funksiyası ilə müqayisə edilə bilər. Türk xalq musiqisində bağlamadan başqa, digər xalq çalğı alətləri "rəng saz" olaraq təbir edilir və qiymətləndirilir.

Türk xalq musiqisi icralarında istifadə notların ümumiyyətlə vokal və bağlama üçün yazılmış olması digər çalğı alətlərinin ifasının fərdi bacarıq və şərhə buraxılmış olması da qeyd olunan səbəblərin arasına əlavə edilə bilər. Necə ki, kəmanəyə xas bir notasiya sistemi icra və təhsildə mövcud deyil. Bu şərtlər altında birdən çox kəmanənin toplu halda çalması da olduqca çətinləşir. Azərbaycanda nümunələrinə rast gəlinən xalq çalğı

alətləri orkestrlərinin Türkiyədə də yaradıla bilməsi üçün bu problemlərin həll edilməsi lazımdır. Belə ki Azərbaycanda çalğı alətləri forma, təhsil və icra sahələrində müəyyən standartlara qovuşdurulmuş notasiya problemləri həll və toplu halda icrası mümkün sayılmışdır.

Bu işdə, kamança kəmanəyə görə daha bas bir tezliyə sahib olmasından faydalanılaraq, kəmanələrin yan-yana çalınma keyfiyyəti araşdırılmışdır. Beləcə, violin və violaların orkestrdə yan-yana çalınması ilə əldə edilən təsirin Türk xalq musiqisinə tətbiqi gündəmə gələrək, Türk xalq musiqisində yaylı partiyalarının istifadəsi istiqamətində bir sınaq edilmişdir.

**III fəslin ikinci bölməsi (3.2.) "Kəmanə tədrisinin qiymətləndirilməsi və kamança tədrisi ilə müqayisəsi"nə həsr olunmuşdur.**

Tədqiqatda kəmanə təhsili mövzusunda pedaqoqlar, şagirdlər və ifaçılarla aparılan müsahibələrdə verilən məlumatlardan əldə etdiyimiz qənaətləri bu şəkildə sıralaya bilərik: Türkiyədə İstanbul Texniki Universiteti Türk Musiqisi Dövlət Konservatoriyasından başqa, digər təhsil müəssisələrində kəmanə təhsilinə bakalavr pilləsi səviyyəsində başlandığı təsbit edilmişdir. İstər təhsilə başlama yaşı, istərsə də təhsilin müddəti baxımından, virtuoz səviyyədə ifaçıların yetişdirilməsi nəzərdə tutulan hədəflərin yerinə yetirilə bilməyəcəyi görünür. Kəmanə təhsilində standart qəbul olunmuş yazılı bir metodik vəsaitin və tədris metodunun olmaması, digər bir ciddi problem kimi qarşımıza çıxır. Kəmanə dərslərinin həftəlik dərs yükünün, tələbələrin istənilən müvəffəqiyyətlərə nail ola bilməsi üçün ümumiyyətlə qeyri-kafi qaldığı müşahidə edilmişdir. Kəmanə təhsili verən pedaqoqların akademik baxımdan yuxarıda qeyd olunan problemləri aradan qaldırmaq üçün zəruri işləri görmədikləri müəyyən edilmişdir. Mövcud təhsil sisteminin, şagirdlərə bir yerdə icra etməyi təmin edəcək vərdişləri qazandıra bilməməsi üzə çıxmışdır.

Kəmanə təhsili ilə əlaqədar yuxarıda təsbit edilən problemlərin aradan qaldırıla bilməsi üçün irəli sürdüyümüz həll təkliflərini bu şəkildə sıralaya bilərik: Kəmanə təhsili mümkün ola bilən ən erkən yaşda başlamalıdır. Araşdırmalardan ən ideal başlama yaşının 9-10 yaş olduğu qənaətinə gəlirik. Bunun üçün bu təhsilin həyata keçirildiyi konservatoriyalarda ilk və orta səviyyəli çalğı təhsilinin infrastrukturu hazırlanmalıdır. Bu kimi infrastruktur, təhsil müddətinin daha qənaətbəxş olmasını təmin edəcək. Müasir təhsil normalarına uyğun standart bir yazılı metodik vəsaitin olması, yüksək səviyyəli kəmanə sənətçilərinin yetişməsində əvəzsiz və zəruri və vacibdir. Belə bir metod, təhsilin də müəyyən standartlara qovuşmasını

təmin edəcək. Həftəlik altı saatlıq dərs yükü kəmanə təhsilinin arzu edilən səviyyəyə çatmasında əhəmiyyətli bir cəhət kimi üzə çıxır. Kəmanə təhsilinin reallaşdırıldığı təhsil müəssisələrində çalışan akademik heyətin seçilsində son dərəcə diqqətli davranmalıdır. Bu heyətin akademik və bədii cəhətdən inkişafa açıq pedaqoqlar arasından seçilməsi əhəmiyyət kəsb edir. İstər Türk xalq musiqisinin ehtiyaclarını qarşılayacaq, istərsə çoxsəsli icra tərzinə sahib ifaçıları yetişdirə bilmək üçün təhsil sisteminin bu istiqamətdə nəzərdən keçirilməsi şərtdir.

Dissertasiyanın **Nəticə** bölməsində tədqiqata yekun vurulur. Dissertasiyada aparılan tədqiqatdan əldə etdiyimiz nəticələri aşağıdakı kimi ifadə edə bilərik.

Qloballaşan dünyada ənənəvi mədəniyyətlərin bir-birilə qarşılıqlı əlaqədə olduqları bir gerçəklikdir. Qarşılıqlı əlaqəli keçmişə malik xalq mədəniyyətləri, informasiya vasitələrinin son dərəcə geniş yayıldığı indiki vaxtda daha çox sürətlə inkişaf edir və bu inkişafdan payına düşəni qəbul edir. Çalğı alətlərinin də bu kimi inkişafa məruz qalması təbiidir. Unudulmamalıdır ki, dünyadakı bütün çalğı alətləri xalq çalğısı mənşəlidir. Zaman içərisində inkişaf etdirilərək bugünkü vəziyyətlərinə çatmışlar. Kəman ailəsi buna nümunə ola bilər. Haqqında bəhs etdiyimiz xalq çalğı alətlərinin də inkişaf səviyyəsi zamanın təsirinə məruz qalmışdır, əks halda onlar yox olma riski ilə qarşılaşmalı olardılar.

Ənənəvi istifadədən professionallığa addım atmış, ancaq professional musiqi anlayışının tələblərini yerinə yetirməmiş çalğı alətləri ilə bağlı aparılan tədqiqatlar, bu çalğı alətlərinin varlığını davam etdirə bilməsi baxımından olduqca böyük əhəmiyyət kəsb edir. Təqdim etdiyimiz bu dissertasiyada birinci planda kəmanə çalğı aləti araşdırılmışdır. Bu çalğı alətinin ən yaxın qohumu olan kamança üçün təxminən bir əsrdir Azərbaycanda görülən işlər sayəsində yaxşı bir təhsil sistemi və son dərəcə zəngin bir not ədəbiyyatı yaradılmışdır. Kamança çalğı alətinə bizim tədqiqatımızda nümunə olaraq müraciət edilmişdir. Dissertasiyada aparılan araşdırmalar və əldə olunan nəticələr kəmanə çalğı alətinin də eyni inkişaf səviyyəsinə çatdırılmasına istiqamətləndirilmişdir.

Uzun illər bu çalğı alətini həm tədris edən, həm də ifasını reallaşdıran bir sənətçi olaraq, yuxarıda göstərilən inkişaf boyu özünü göstərən problemlərin həll olunmasını təmin etməyə çalışırıq. Bu məzmunda, kəmanənin yerli ifaçılıq xüsusiyyətləri, strukturu, çalğı texnikaları, melodiyaların müxtəlifliyi çox zaman yerində təsbit edilib, dissertasiyanın müxtəlif hissələrində işlən-

mişdir. Metod olaraq, sahə çalışması, ədəbiyyatın təhlili nəticəsində əldə edilən məlumat və müəllimlik təcrübəmizdəki müşahidələr əsas götürülmüşdür.

Kəmanənin Türkiyədəki inkişafı və bugünkü səviyyəsinin diqqətə çatdırılması məqsədilə kəmanənin standart struktur xüsusiyyətləri və ölçülərini rəsm və fotolardan faydalanaraq göstərməyə çalışmışıq. Bu rəsmlər içərisində standartlaşmağa uyğun deyə bildiyimiz bir kəmanə dizaynına yer verilmişdir. Kəmanə təhsilinin doğru bir şəkildə aparılması və icrada daha dolğun bir səviyyəyə çatdırılması üçün qeyd edilən dizayn tərəfimizdən ortaya qoyulmuşdur. Beləcə həm kəmanə haqqında ətraflı bir qaynaq yaradılmış həm də kəmanə təhsili və ifaçılığına dair problemlərin həlli ilə əlaqədar təkliflər verilmişdir.

Bu tədqiqat əsnasında kəmanə icrası və təhsili ilə əlaqədar üzə çıxarılan problemlərdən biri də notasiya problemidir. Türk xalq musiqisinə aid melodiyaların nota salınması tonal musiqidən fərqli olaraq həyata keçirilir. Notlar duyulduqları gerçək tona görə deyil, ən rahat oxunub ifa ediləcəkləri tona görə nota salınır. Bu vəziyyət xalq musiqisinin digər çalğı alətlərinə aid olduğu kimi, kəmanə üçün də uyğundur.

Əslində, transpozisiyalı yazı tərzi Qərb musiqisində də tətbiq olunan bir üsuldur. Bu yazı şəklindən geniş istifadə pratiki baxımından da təklif olunur. Bununla birlikdə Türk xalq musiqisi üzrə notlarda istifadə edilən və ancaq icra zamanı tətbiq olunan bəzi çalğı üsulları vardır ki, bunların notasiyada da mütləq ifadə edilməsi lazımdır. Artikulyasiya, bəzəmə və dinamik olaraq ümumiləşdirə biləcəyimiz bu xüsusi çalğı üsulları, çalğı alətlərinin birliyi baxımından kəmanə ifasında və təhsilində istifadə notlara mütləq əlavə olunmalıdır.

Tədqiqatımız əsnasında nümunə olaraq araşdırdığımız Azərbaycan kamançasının bəstəkarlar tərəfindən yaradılmış son dərəcə zəngin bir repertuara sahib olduğu və bunun da yaxşı ifaçılar yetişməsini və təhsil standartlarının yüksəlməsini təmin etdiyi tərəfimizdən təsbit edilmişdir. Dünyada başqa nümunələrinə də rast gəlinən bu cür işlərin kəmanə üçün də reallaşdırılması son dərəcə əhəmiyyətlidir. Yuxarıda sıraladığımız təməl prinsiplər istiqamətində standartları göstərilən kəmanə üçün əsərlər yazılmalı və çalğı alətinin sahib olduğu potensialın ortaya çıxarılması təmin olunmalıdır. Beləcə yalnız Türkiyədə deyil, dünya üzrə tanınan və təqib edilən bir çalğı aləti olması üçün yol açılmalıdır.

Beləliklə, kəmanə çalğı aləti ilə bağlı ilk tədqiqat olan bu dissertasiya alətşünaslığın təməl prinsipləri üzərində qurulmuşdur. Dissertasiyada

araşdırılmış mövzular gələcəkdə aparılacaq tədqiqatlarda inkişaf etdirilib zənginləşdirilməyə açıqdır. Mövzuya, daha çox elm, sənət və təhsil sahəsində çalışan mütəxəssislərin maraq göstərməsinə ehtiyac duyulur.

**Dissertasiyanın məzmununa uyğun olaraq müəllifin aşağıdakı elmi məqalələri çap olunmuşdur:**

1. “Kemane’nin tanıtımı”. Halk Müziğinde Çalgılar Uluslararası Sempozyumu, Kocaeli, Türkiye.Aralık 2007.
2. “Türkiye’de Kemane”. Musiqi Dünyası jurnalı 3-4/37 2008, s.112-113.
3. “Kemane çeşitleri ve özellikleri”. Musiqi Dünyası jurnalı 3-4/41 2009. s. 132-134.
4. “Anadolu’nun Yok Olmaya Yüz Tutmuş Yaylı Sazları: Iklığ & Eğit”. Musical Instruments of Turkic Peoples International Symposium , Bakü, Azerbaycan. Aralık 2010.
5. “Asya ve Anadolu’nun spike-fieddle’ları kemane ve kamança”. Təsviri və dekorativ-tətbiqi sənət məsələləri No 2 (8). Bakı 2011. s. 115-123.
6. “Türk Müziği Devlet Konservatuarlarında kemane eğitiminde görülen başlıca problemler”. Beynalxalq Malatya Türk Halk Müziği Sempozyumu. Malatya, Kasım-2011
7. Negative influences of the structural deficienciesof kemane bow on performance./The second international conference-competition for students in musicology.Tbilisi, Georgia/2011
8. “Değişen yüzyılda Azerbaycan’da kamança çalgısı ve eğitimi”. “Müziği Algılamak” III. Beynelxalq Hisarlı Ahmet sempozyumu tam metin kitabı. Kütahya, Türkiye.Mayıs 2012. s.493-500
9. “Spike Fieddles of Azerbaijan and Turkey : Kamança and Kemane”.ANIMUSIC: Associação Nacional de Instrumentos Musicais / National Association for Musical Instruments - Organological Congress 2012, Portugal https://drive.google.com/file/d/0B1v_4Ytk-cpnLUNfSzkwbDFNbkU/edit
10. Teke Bölgesinde kabak kemane ve yörük kemenesi”. Porte Akademik jurnalı sayı 7 (Kemençe özel sayısı) / Musiki ve dans araştırmaları jurnalı (İnternational Periodical). İstanbul 2013 s. 84-88.
11. “Kemane ve kamança eğitiminin mukayesesi”. Türksoylu xalqların musiqi medeniyetinin tedqiqi problemleri XIII Beynelxalq elmi-praktiki konferansın materialları. Bakı-2014. s. 137-139.
12. Kəmanə/Kamança tipli analoji çalğı alətlərinin elmi mənbələrdə yeri. // http://harmony.musigi-dunya.az, Bakı, № 13, 2014

**Кадир Мустафа Верим**

# «ТУРЕЦКИЕ – АЗЕРБАЙДЖАНСКИЕ РАЗНОВИДНОСТИ КЕМАНЧИ И ИХ ИСПОЛНИТЕЛЬСКИЕ ОСОБЕННОСТИ»

## Резюме

Диссертация посвящена сравнительному изучению аналогичного типа струнно-смычковых народных музыкальных инструментов как кемане и кеманче, широко распространенных в Турции и Азербайджане. В этом аспекте рассматриваются разновидности инструмента, вопросы исторической эволюции, усовершенствования инструмента, его художественные и технические возможности, исполнительские качества. Автор дает сравнительный анализ строения различных видов инструмента, вносит предложения для стандаризации строя и создания нотного обучения.

**Диссертация состоит из введения, 3-х глав, 6-ти разделов, заключения и списка использованной литературы.**

В **I главе** диссертации – «**Историческое развитие аналогичных музыкальных инструментов типа кемане / кеманча»** - дается исторический обзор научной литературы о возникновении и развитии инструментов семейства кемане и их классификация.

**II глава – «Разновидности кемане, особенности строения и стандаризация, исполнительская техника и настройка инструмента»** - состоит из четырех разделов: **2.1. – «Разновидности кемане»; 2.2. – «Изучение строения кемане»; 2.3. – «Стандаризация инструмента и семейство кемане»; 2.4. – «Техника исполнения на кемане и вопросы настройки инструмента».**

**III глава - «Области применения кемане и вопросы обучения»** - состоит из двух разделов: **3.1. – «Области применения кемане»; 3.2. – «Вопросы оценивания процесса обучения на кемане и сравнения с преподаванием на кеманче».**

В заключении даются выводы и обобщения проведенного музыкального анализа.

**Kadir Mustafa Verim**

## "TURKISH - AZERBAIJANI SPECIES OF KEMANCHA AND ITS PERFORMING FEATURES"

### Summary

The dissertation is devoted to the comparative study of the same type stringed folk musical instruments as kemane and kemanche, widespread in Turkey and Azerbaijan. In this aspect is considered the varieties of the instrument, the historical evolution, improvement of the instrument, its artistic and technical capabilities, performance quality. The author gives a comparative analysis of the structure of various types of the instruments, makes proposals for the standardization system and the creation of the musical training.

The dissertation consists of introduction, 3 chapters, the conclusion and the bibliography.

In the I chapter of the dissertation - "Historical development of similar musical instruments such as kemane / kemancha" - provides a historical review of the scientific literature on the origin and development of instruments kemane family and their classification.

Chapter II - "Varieties kemane, the structural features and standardization, performing technique and tuning of the instrument" - consists of four sections: 2.1. - "Varieties kemane"; 2.2. - "Study of the structure kemane"; 2.3. - "Standardization of the instrument and kemane family "; 2.4. - "Performance technique on kemane and the settings of the instrument."

Chapter III - "Applications of kemane and training issues" - consists of two sections: 3.1. - "Applications of kemane"; 3.2. - "Issues of estimating of the learning process of kemane and comparison with teaching in kemanche."

In conclusion is given the inference and generalizations of musical analysis.

Çapa imzalanıb: 15.04.2015.
Format: 60x84 1/16. Tiraj: 100.

**«Mütərcim» Nəşriyyat-Poliqrafiya Mərkəzi**
Bakı, Rəsul Rza küç., 125
tel./faks 596 21 44
e-mail: mutarjim@mail.ru

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ**
**АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

**БАКИНСКАЯ МУЗЫКАЛЬНАЯ АКАДЕМИЯ**
**ИМЕНИ УЗЕИРА ГАДЖИБЕЙЛИ**

*На правах рукописи*

**КАДИР ВЕРИМ**

# ТУРЕЦКИЕ – АЗЕРБАЙДЖАНСКИЕ РАЗНОВИДНОСТИ КЕМАНЧИ И ИХ ИСПОЛНИТЕЛЬСКИЕ ОСОБЕННОСТИ

6213.01 – Музыкальное искусство

**А В Т О Р Е Ф Е Р А Т**

диссертации на соискание ученой степени
доктора философии по искусствоведению

**Баку - 2015**